# Düşüncəylə duyğuların qovşağında



**Yaradıcılığın müxtəlif sahələri var. Tənqid, eləcə də teatr tənqidi bu sahələrdən biridir. Hətta mən deyərdim ki, ən çətinidir. Məryəm Əlizadə 1972-ci ildə «Qobustan» incəsənət almanaxında çap olunan «Tofiq Kazımovun son quruluşları» məqaləsi ilə teatr ictimaiyyətinin diqqətini cəlb etdi. Tezliklə imzası respublikanın müxtəlif mətbuat orqanlarında, ekran və efirdə görünməyə başladı.**

**Məryəm Əlizadə-60**

Onun məqalə, resenziya və teatr icmalları dərin, bənzərsiz mühakimələri, milli teatr prosesinin formalaşması və inkişafı kimi mürəkkəb, müxtəlif və dəyişkən prosesdə hər hansı bir teatr hadisəsinin yerini müəyyən etmək bacarığı ilə seçilir. M.Əlizadəyə xas olan baxım bucağının müxtəlifliyi, genişliyi, teatr sənətində gedən axtarışlara sonsuz maraq, istedada qarşı yönələn qeyri-adi həssaslıq, istedadlı sənətçini qorumaq istəyi, yüksək ixtisas biliyi ona tez bir zamanda teatrın dostu, teatrın təəssübkeşi olan teatrşünas imicini qazandırdı.

Mən əziz dostum Məryəm xanımın bir teatrşünas kimi sənət baxışlarına, sənət düşüncələrinə və tənqidçi mövqeyinə yaxşı bələdəm.

Onun üçün hər hansı bir məqalə, yaxud çıxış və məruzə, bir sözlə, teatrla bağlı olan hər bir iş hər şeydən öncə teatrın təsdiqi aktıdır. O, teatr prosesinin istiqamətini irəlicədən duyan və teatra mürəkkəb sənət problemlərinin həllində kömək edən bir teatrşünasdır.

Yaradıcılıq sənətkarın daxili-mənəvi təcrübəsini ümumiləşdirən, sintezləşdirən bir prosesdir. Məryəm xanımın araşdırma və məqalələrində, monoqrafiyalarında bədii obrazın təsir qanunlarının, incəsənətin qavranılma qanunlarının araşdırılması ilə yanaşı, yaradıcılığın intuisiyaya əsaslanması amili ön plana çəkilir. Bu yazıların bənzərsizliyi də məhz bundadır. Hər bir sənətkar öz individual qanunlarına əsaslanaraq yaradır və onların yaratdıqlarını məhz bu qanunlara söykənib təhlil etmək gərəkdir. Teatrşünas Məryəm Əlizadə bu qanunlara böyük ehtiramla yanaşaraq sənətkarın dünyaduyumuna, həyata və insana olan münasibətinə də öz yazılarında böyük əhəmiyyət verir.

M.Əlizadə monoqrafiya və məqalələrində həmişə iki ünvana müraciət edir: teatra və teatr xadimlərinə, eyni zamanda «teatral pubrika»ya və hətta tamaşanı görməyən hər bir kəsə. Çünki müəllif qəti əmindir ki, onun yazısını oxuyan «hər kəs»də mütləq tamaşaya baxmaq hissi oyanacaqdır. Mər-

yəm xanımın «Sənətkar və zaman», «Şəxsiyyət və cəmiyyət», «Klassiklər bu gün», «Müasir Azərbaycan dramaturgiyasının problemləri», «Görkəmli aktyorların portretləri», «Görkəmli rejissorların portretləri», «Qeyri-aktual düşüncələr», «Yol qeydləri», «Gənc rejissorların seleksiyası» və s. silsilədən olan məqalələrində teatr və dramaturgiya, zaman və çağdaş sənətçi haqqında dəqiq müşahidələrlə, yetkin, sərbəst və uzunömürlü düşüncələrlə üz-üzə qalırıq. Bu məqalələrin janr, həcm mozaikası dövrün teatr və dramaturgiyasının tam dolğun mənzərəsini yaradır.

Məqalələrində, oçerk və esselərində, monoqrafiyalarında o, teatrı ədəbiyyatla, tarixlə, mədəniyyətlə sıx ünsiyyətdə təqdim etməklə yanaşı, nəinki tamaşanı, həm də teatrın adamlarını – onun yaradıcılarını, fədailərini oxucuya göstərməyə və sevdirməyə cəhd edir.

Son zamanlar, özü də «elmi əsaslandırılma» ideyalarıyla yoğrulmuş «teatrın ölümü» haqqında təşvişli bəyanatlar ovqatımıza və düşüncəmizə mənfi təsir göstərməyə bilməzdi. Bu üzdəniraq «bəyanatlar»da teatr sənətimizin milli kökləri danılır, sənət təfəkkürümüzə yabançı elan olunur və buna görə də yeni şəraitdə onun ölümə məhkum olduğu iddia edilirdi.

Məryəm Əlizadə 90-cı illərdəki məqalələrində teatr sənətini canlı proses kimi araşdıraraq «canlı haqqında sözü»nü deməyə müvəffəq oldu.

M.Əlizadənin «Teatr: seyr və sehr» («Elm» nəşriyyatı, 1998) kitabı ilk növbədə ağrılı-acılı ittihamlarla dolu «nekroloq»lara – «ölü haqqında söz»lərə sanballı və layiqli cavab verdi.

Bədii kitab kimi oxunan bu elmi əsərin başlıca nəticəsi teatr prosesinin, tarixi hərəkatın zamanını duydurmaq-anlatmaqdır: şəxsən məndən ötrü, bəlli səbəblərdən qırılmış zaman zəncirbəndi bərpa olundu və mən teatr sənətimizin əsl tarixi qaynaqlarını minillik mədəniyyətimizin ən dərin qatlarında gördüm.

Məryəm xanımın teatr prosesinə baxım bucağı məhz onun zamanın üzvi və universal hərəkət, idealına yönəlmiş mürəkkəb, enişli-yoxuşlu, böhranlı-uğurlu yürüş olmasına söykənir. Ulu türk mədəniyyətindən qaynaqlanıb möhtəşəm islam mənəviyyatıyla mayalanmış milli teatr prosesi professional, avropatipli teatrın yaranmasına tarixi səbəb oldu. Bu fikir Məryəm Əlizadənin yazılarında, tədqiqatlarında öz ifadəsini tapan konsepsiyanın özülüdür. Müəllif ayrıca əsaslandırılmış və milli sənətşünaslığımızın elmi bazisinə istinad edən ideyasını sübuta yetirir.

Görkəmli alim, ictimai və dövlət xadimi Cəfər Cəfərovun elmi məktəbinin yetirməsi və müəllliminin davamçısı olan Məryəm Əlizadə öz yaradıcılığında «elmi irsiyyət» ənənəsini yaşadır.

Bir alim, bir mədəniyyət təəssübkeşi kimi Məryəm Əlizadə teatr prosesinin bütün çağlarına görə məsuliyyəti qəbul edir, öz yazılarında və çıxışlarında məhz bu mənəvi mövqedən məntiqi təhlilini aparır. Ən önəmlisi isə odur ki, bu monoqrafiya və məqalələr müəllifinin təbiətindən xəbər verir. Hətta ən sərt, ən barışmaz (çünki belə məqalələri çoxdur) yazılarda belə bunları yazanın xeyirxah, həlim ziyalı obrazı arxa plana keçmir.

Özünə sadiqlik, xeyirxahlıq, mərdlik, mənəvi saflıq və sağlamlıq sənəti duymaq və dərk etmək istedadı ilə birləşdikdə teatrşünasın şəxsiyyəti barədə danışmağa dəyər.

Teatr sənəti ölümsüzdür, amma eyni zamanda da anidir, ölümlüdür, çünki tamaşa konkret zaman içində başlayır, bitir və əbədiliyə qovuşur. Görünür ki, teatrşünasın da missiyası sənət incilərini gələcək üçün qorumaqdır.

Məryəm xanım bu çətin missiyanın öhdəsindən gələn və teatrı «ölməyə qoymayan», teatrşünas professiyasının ləyaqətini qoruyan alimlərimizdəndir.

M.Əlizadə bu gün çox məhsuldar işləyən teatrşünasdır. 70-ci, 80-ci, 90-cı, 2000-ci illərdə yazdığı müxtəlif janrlı yazılarında o, teatr tarixinin ən əsas, ən vacib anlarını cəmiyyətin, xalqın tarixi ilə vəhdətdə təsvir edə bilibdir. M.Əlizadə teatrı yalnız teatrın çərçivəsinə salmır, o, səhnə sənətinin problemlərini insanın real problemləri ilə münasibətdə görür, nəinki ancaq tamaşanı – bu tamaşanın arxasındakı reallığı təhlil edir, çünki canlı həyatdan qıraqda olan teatr onu maraqlandırmır.

Kitablar, şəkillər, notlar qalır. Tamaşalar ölür, əbədi olaraq yoxa çıxır. Yaradıcı teatrşünasın əməyi isə teatrın yaddaşının, əbədi xatirəsinin, teatr mədəniyyətinin, teatr ənənəsinin qorunulması deməkdir. Məryəm xanım məhz bu niyyətlə teatra xidmət etməyi bacarır.

«Sevincin sinonimi» adlı orijinal monoqrafiyası görkəmli gülüş ustası Afaq Bəşirqızının yaradıcılığına həsr olunub.

Görkəmli teatr rejissoru Tofiq Kazımovun yaradıcılığına həsr olunmuş «Dördüncü ölçünün rəngləri» monoqrafiyası teatr sənətinin və onun mürəkkəb tərkib hissəsi olan rejissor sənətinin əbədiliyini bir daha təsdiqləyir...

Məryəm Əlizadə tez-tez milli teatrşünas elmimizi xarici ölkələrdə keçirilən simpoziumlarda və konfranslarda ləyaqətlə təmsil edir. Teatrşünas-alim həmçinin Azərbaycan Teatr Xadimləri İttifaqının bütün tədbirlərində yaxından iştirak edir.

Teatr sənətinin ən əhəmiyyətli və bəlkə də ən çətin peşəsi, heç şübhəsiz, rejissuradır. XX yüzillik kosmos və rejissura əsri elan olunandan sonra mənsub olduğum peşənin qarşısına bir sıra yeni, prinsipial məqsəd və vəzifələr qoyuldu ki, bunları, eyni zamanda, elmi-nəzəri, konseptual müstəvidə həll etmək zəruri oldu.

Təsadüfi deyil ki, məhz XX əsrdə rejissuranın sürətli inkişafı ilə üzvi bağlılıqda sənətşünaslığın tərkib hissəsi olan teatrşünaslıq da güclü sıçrayış nəticəsində müstəqil bir elm-sənət fəaliyyət sahəsinə döndü. Əski dövrlərdən fərqli olaraq, yeni teatrşünaslıq rejissuranın dominantlığını qəbul etdi və bütün araşdırma-dəyərləndirmə əməliyyatlarını məhz bu aspektdən apararaq elmi baxımdan dürüst qənaətlərə gələ bildi.

Hörmətli oxuculara böyük məmnuniyyətlə açıqlamalıyam ki, yuxarıda söylədiyim ümumiləşdirilmiş mülahizəni şəxsən mən illər boyu yaradıcı ünsiyyətdə olduğum Məryəm Əlizadə adlı teatrşünasın fəaliyyətini izləyərək formulizə edə bildim. Böyük alim və dövlət xadimi Cəfər Cəfərovun tələbəsi olan Məryəm Əlizadə, məndən ötrü, Azərbaycan teatr məkanında yaranmış və inkişaf etmiş yeni teatrşünaslığın ən parlaq nümayəndəsidir.

Bu gün mən tam məsuliyyətlə deyə bilərəm ki, Məryəm Əlizadə müəlliminin vəsiyyətinə sadiq qalaraq, öz elmi araşdırma metodunu məhz rejissuranın üzərində qurub və məhz bu aspektdən tamaşanın təhlilini son dərəcə əsaslı və – ən ümdəsi – sistemli şəkildə apara bilib.

Mənə elə gəlir ki, bir teatrşünas kimi Məryəm Əlizadə çox erkən rejissuranın məğzini və özəlliyini dərk edib. O, özünəməxsus həssaslıqla bu peşənin, bu yaradıcı fəaliyyətin psixoloji təməlini anlayaraq onun ikili xassəsini aşkarlayıb. Məlumdur ki, rejissor yaradıcılığı iki təməlli xassənin sintezindən – düşüncə (intellektual başlanğıc) və duyğuların (emosional başlanğıc) vəhdətindən yaranan bədii-yaradıcı fəaliyyətdir. Məryəm Əlizadənin də elmi metodu məhz bu iki başlanğıcın təmas nöqtəsində, qovşağında bərqərar olub. Məhz buna görədir ki, onun təhlilləri həm dəqiq diskursa malikdir, həm də tamaşanın emosional ovqatını adekvat əks etdirir.

... Bilmirəm, peşənin şərtlərimi Məryəm xanımın insani xarakterinə təsir edib, yoxsa teatrşünas özəlliyi onun xasiyyətindən qaynaqlanır, amma onu yəqin bilirəm ki, sevimli həmkarım, əziz dostum və sirdaşım həyatda da düşüncəylə duyğuların qovşağında yaşayıb-yaradır. Bəlkə dostumuzun məhz bu yaşam mövqeyi onu hamımıza əziz, doğma və gərəkli etməkdədir.

Məryəm xanımın çoxşaxəli fəaliyyətinin bir qolu da teatr pedaqoqluğudur. O, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Teatrşünaslıq kafedrasının professorudur və gənc kadrların hazırlanması işində yaxından iştirak edir.

Teatrşünas kimi məhsuldar işləyən Məryəm xanım «Teatr tənqidi» fənnini tədris etmək hüququnu öz yaradıcılığı ilə qazanmışdır. Universitetimizin professor-müəllim və tələbə heyətinin böyük məhəbbəti ilə əhatə olunmuş Məryəm xanım bu gün öz nəcib və xeyirxah fəaliyyətindən zövq ala-ala işləyir, təcrübə və biliyini çox sevdiyi və onu sonsuz sevən tələbələrinə öyrədir.

**Məryəm xanımın teatrşünas və teatr pedaqoqu kimi Azərbaycanın teatrşünaslıq elmində ki xidmətləri və yeri, mövqeyi göz qabağındadır. Mən əziz həmkarımı ad günü münasibətilə təbrik edir və onun ziyalı təbiətinin Azərbaycanın mədəniyyət aləmi və teatr ictimaiyyəti üçün çox əziz olduğunu bir daha bildirmək istəyirəm.**

● **Azər Paşa NEMƏT,**
*Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, xalq artisti, professor*